http://www.amu.edu.az

# Təbib

Təsisci: Azərbaycan Tibb Universiteti

Qəzet 1933 -cü ildən çıxır. № 16 (1634) 30 sentyabr 2016 - cı il Qiymәti 50 qəpik

# Bakıda V Beynəlxalq Humanitar Forum işə başlayıb

## Azərbaycan Prezidenti İlham Əliyev Forumun rəsmi açılış mərasimində iştirak edib



**Sentyabrın 29-da Heydər Əliyev Mərkəzində V Bakı Beynəlxalq Humanitar Forumu işə başlayıb.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Forumun rəsmi açılış mərasimində iştirak ediblər.

Bakı beşinci dəfə Beynəlxalq Humanitar Foruma ev sahibliyi edir. Bu Forum bəşəriyyətdə maraq doğuran qlobal xarakterli məsələlərə dair geniş spektrli dialoqlar, fikir mübadilələri və müzakirələr aparmaq məqsədilə hər il tanınmış dövlət xadimlərini, elmin müxtəlif sahələri üzrə Nobel mükafatı laureatlarını və nüfuzlu beynəlxalq təşkilatların rəhbərlərini, o cümlədən dünyanın siyasi, elmi və mədəni elitasının görkəmli nümayəndələrini bir araya toplayan mötəbər tədbirdir. Humanitar Forumun gündəliyi bu dəfə də aktual məsələlərdən ibarətdir. Budəfəki Forumun mövzuları da son dərəcə maraqlıdır. "Multikulturalizmin müxtəlif modelləri: nəzəriyyədən humanist təcrübəyə doğru", "İnsanların kütləvi yerdəyişməsi şəraitində insan kapitalının qorunmasının önəmi davamlı inkişafın əsası kimi", "Jurnalistikanın informasiya dövrünə transformasiyası və onun sivilizasiyalararası dialoqun təmin edilməsində rolu", "Davamlı inkişaf və ekoloji sivilizasiya", "Molekulyar biologiya, biofizika, biotexnologiya və müasir tibb sahəsində kadr hazırlığı məsələləri: innovativ və etik problemlər" Forumun müzakirə mövzuları olacaq. Bundan əlavə, "Texnologiyaların konvergensiyası və gələcəyə dair proqnozlar: XXI əsrin əsas çağırışları" mövzusu da ekspertlər tərəfindən müzakirəyə cəlb ediləcək.

Dövlətimizin başçısı Forumun açılışında nitq söyləyib.

## BU SAYIMIZDA


**BÖYÜK ELMİ ŞURADA**


2-3

**Rektor Prezident təqaüdçüləri ilə görüşdü** 3



**Medipol Meqa Universitetinin nümayəndələri Tədris Cərrahiyyə Klinikasında** 3

**Elmi işlərlə bağlı müzakirələr aparılıb** 4

**Nobel mükafatçısı Tibb Universitetində mühazirə ilə çıxış etdi** 5



**Azərbaycan və Türkiyə arasında ikili diplom tətbiqi gündəmdədir**


4

**Koreyanın tanınmış tibb alimləri Tibb Universitetinin qonağı olublar** 5

# BÖYÜK ELMİ ŞURADA

**Sentyabrın 28-də Böyük Elmi Şuranın 2016-2017-ci tədris ilində ilk yığıncağını açan Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli əvvəlcə yeni tədris ilinin başlanması münasibətilə şura üzvlərini təbrik etdi. Gündəlikdəki məsələlərə keçməmişdən öncə yay tətili müddətində dünyasını dəyişən ağız və üz-çənə cərrahiyyəsi kafedrasının professoru Teymur Babayevin xatirəsi bir dəqiqəlik sükutla yad edildi.**



Xeyirlə şərin qardaş olduğunu xatırladan rektor həmin müddətdə bir neçə əməkdaşımızın yubileylərinin olduğunu da dedi. İlk növbədə uşaq xəstəlikləri kafedrasının müdiri, ə.e.x., akademik Ədilə Namazovanı yubileyi münasibətilə təbrik edən rektor onu universitetimizdə olan tarixi şəxsiyyətlərdən biri kimi dəyərləndirdi. Ədilə xanımın yubileyi münasibətilə ölkəmizin prezidenti cənab İlham Əliyevin imzaladığı sərəncamı diqqətə çatdıran universitet rəhbəri kollektiv adından, şəxsən öz adından hörmətli akademikə möhkəm cansağlığı, həmişə belə şən qalmağı və universitetin həyatında yenə də yaxından iştirak etməyi arzuladı.



Öz növbəsində ona göstərilən diqqət və qayğıya görə ölkə başçısı cənab İlham Əliyevə xüsusi təşəkkürünü bildirən yubilyar səhiyyə naziri Oqtay Şirəliyevə və universitetin rektoru Gəray Gəraybəyli başda olmaqla elmi şuranın üzvlərinə təşəkkürünü bildirdi.

Akademik pediatriya fakültəsinin bağlanması ilə əlaqədar əməkdaşların işsiz qalmaq həyəcanına son qoyan rektora pediatrlar adından minnətdarlıq etməyi də unutmadı.

Rektor professor Cəbrayıl Məmmədovu və məhkəmə təbabəti kafedrasının müdiri, professor Mənsur Bünyatovu da yubileyləri münasibətilə təbrik etdikdən sonra "Azərbaycan Tibb Universitetində 2015/2016-ci tədris ilinin yekunları haqqında hesabat və 2016/2017-ci tədris ilində universitet kollektivi qarşısında duran vəzifələr" barədə universitetin tədris işləri üzrə prorektoru, professor Sabir Əliyevin məruzəsi dinlənildi.

Bu il ali təhsil müəssisələrinə ümumilikdə rekord sayda tələbə qəbul olunmasının keçid ballarının aşağı salınması hesabına deyil, akademik nəticələrin yüksəlməsi nəticəsində əldə edildiyini xatırladan prorektor bildirdi ki, bu nailiyyəti ölkəmizdə ulu öndərimiz Heydər Əliyevin siyasətini layiqincə davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə təhsil sahəsində həyata keçirilən islahatların məntiqi nəticəsi hesab etmək olar.

Azərbaycanda elmin, təhsilin, milli-mənəvi dəyərlərin dünya miqyasında tanınmasında Heydər Əliyev fondunun Prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın da xüsusi əməyi olduğunu vurğulayan S. Əliyev ölkədə tibb təhsilinin və səhiyyənin inkişafına diqqətin günbəgün artdığını söylədi.

Prorektor onu da qeyd etdi ki, universitetimizin professor-müəllim heyəti, inzibati-təsərrüfat işçiləri və tədris-köməkçi heyəti, həmçinin tələbə və magistrant, doktorantları 2015/2016-cı hesabat ilində var gücləri ilə çalışmış, müstəqil ölkəmiz üçün yüksək ixtisaslı həkim, hərbi həkim, hərbi feldşer və əczaçı kadrlarının hazırlığında müəyyən nailiyyətlər əldə etmişdir.

Çıxışdan məlum oldu ki, hesabat ilində Universitetimizdə 1360-dan çox əməkdaş çalışmışdır ki, onlardan 1243 nəfəri professor-müəllim heyətini və elmi işçilərini təşkil etmişdir: "Onların arasında AMEA-nın 4 nəfər həqiqi, 6 nəfər müxbir üzvü, 28 nəfər «Əməkdar elm xadimi», 39 nəfər «Əməkdar müəllim», 46 nəfər «Əməkdar həkim», 2 nəfər «Fəxri bədən tərbiyəsi işçisi», 127 nəfər professor, 310 nəfər dosent, 163 nəfər elmlər doktoru, 833 nəfər elmlər namizədi və s. vardır ki, onlardan keçən tədris ilində 2 nəfərinə fəxri ad verilmişdir".

2016/2017-ci tədris ilinin əvvəlindən ATU-da 25 ölkədən 739 tələbə, 8 ölkədən 400-ə yaxın dinləyici (bunlardan 40 nəfəri – YÖK), 10 ixtisasartıran, 30 nəfər rezident, 5 nəfər magistrant, cəmi 1187 nəfər xarici vətəndaşın təhsil aldığını diqqətə çatdıran prorektor qeyd etdi ki, bu tələbələrdən 6 nəfəri (6 – İordaniya) dövlət xətti ilə, 130 nəfəri isə Türkiyə Cümhuriyyəti Seçmə və Yerləşdirmə Mərkəzi ( YÖK) yolu ilə təhsilini davam etdirir.

S.Əliyev hesabat dövründə Universitetin elmi-tədqiqat hissəsinin də xeyli məhsuldar çalışdığını diqqətə çatdırdı: "Universitetin nəzdində 1 elmlər doktoru, 4 fəlsəfə doktoru üzrə dissertasiya şuraları fəaliyyət göstərmişdir. Həmin şuralarda 51 iş müdafiəyə çıxarılmış, onlardan 6 iş elmlər doktoru dərəcəsinə, 45 iş isə fəlsəfə doktoru dərəcəsinə layiq görülmüşlər.

Elmi işlərin nəticələrinə görə universitetin əməkdaşları tərəfindən 13 monoqrafiya, 16 dərslik, 41 dərs vəsaiti, 2 kitabça və sorğu ədəbiyyatı, 5 elmi əsərlər məcmuəsi, 17 metodik ədəbiyyat dərc edilmişdir.

Universitetin əməkdaşları xaricdə 399, eləcə də Respublika dövri mətbuatında 810 elmi iş çap etdirmiş və müntəzəm olaraq çıxışlar etmişlər. 2015-ci ildə 1 ixtiraya görə Azərbaycan patenti alınmışdır.

Universitetin əməkdaşları il ərzində Ümumdünya Səhiyyə Təşkilatı və YUNİSEF xətti ilə Respublikanın bir sıra rayonlarında seminarlar aparmış və mühazirələr oxumuşlar.

ATU-nun alimləri 99 adda uzaq və yaxın xaricdə, respublikamızda keçirilən konqres, konfrans və qurultayda iştirak etməklə yanaşı, məruzələrlə də çıxışlar etmişlər.

2015-ci il ərzində 16 elmi-praktik konfrans və universitetin görkəmli alimlərinin yubileylərinə həsr olunmuş konfranslar təşkil edilmişdir".

Məruzəsində universitetin tədris binalarında, klinikalarında, yataqxanalarında və həmçinin sağlamlıq düşərgəsində müəyyən əsaslı və cari təmir işləri görülməsinə də yer ayıran prorektor keçən tədris ilinin payız və yaz semestrlərinin imtahan sessiyalarının nəticələri üzərində xüsusi dayandı: "2015/2016-cı tədris ilinin yaz semestrinin imtahan sessiyasının başlanğıcından 16 nəfər akademik məzuniyyətdə olmuşdur. Yaz semestri ərzində öz ərizələrinə görə 11 tələbə universitetdən xaric edilmişdir. Beləliklə, 5134 nəfər tələbə imtahanda iştirak etmiş, 880 nəfər iştirak etməmişdir. İmtahan verməli olanlardan 4702 nəfəri bütün imtahanlardan müvəffəq qiymətlər alaraq sessiyanı başa vurmuşlar (91,5%, keçən il 94,8%). İmtahan sessiyasını "əla" qiymətlərlə başa vuranlar 1100 nəfər (21,4%, keçən il 15,8%), "əla" və "yaxşı" qiymətlərlə 2074 nəfər (40,4%, keçən il 45,1%), qarışıq qiymətlərlə 1528 nəfər (29,7%, keçən il 33,9%) təşkil etmişdir. 432 nəfər (8,4%, keçən il 5,1%) "qeyri-kafi" almışdır ki, bunlardan da 275 nəfərin yalnız bir fənndən, 85 nəfərin 2 fənndən, 72 nəfərin isə 3 və daha artıq fənndən akademik borcu qalmışdır".

Ümumiyyətlə, universitet üzrə kəmiyyət göstəricisi 91,5% (2014/2015-ci tədris ili – 94,8%), keyfiyyət göstəricisi 61,8% (2014/2015-ci tədris il – 60,9%) olmuşdur. Göründüyü kimi, keyfiyyət göstəricisi keçən tədris ili ilə müqayisədə bir qədər azalmışdır".

Tədris proqramına əsasən yaz imtahan sessiyasından sonra müalicə-profilaktika fakültəsinin III, IV, V kurs, stomatologiya fakültəsinin II, III, IV, tibbi-profilaktika fakültəsinin II, III, IV, əczaçılıq fakültəsinin II, III, hərbi tibb fakültəsinin I, III, V kurs tələbə və dinləyicilərinin istehsalat təcrübəsi keçdiklərini söyləyən prorektor qeyd etdi ki, stomatologiya fakültəsində təhsil alan 127 xarici tələbə, müalicə-profilaktika fakültəsində təhsil alan 124 xarici tələbə, əczaçılıq fakültəsində təhsil alan 67 xarici tələbə istehsalat təcrübəsini öz vətənlərində keçiblər. 130 tələbə Türkiyənin aparıcı klinikalarında, 72 tələbə Almaniyada, 9 tələbə digər Avropa ölkələrində təcrübədə olublar.

S. Əliyev universitetimizə bu il qəbul olunmuş tələbələrin test imtahanlarında yüksək nəticələr göstərməsini xüsusi qabardaraq bildirdi ki, 954 tələbənin 419 nəfəri 600-dən yuxarı bal toplayaraq universitetə daxil olmuşlar, yeri gəlmişkən qeyd edim ki, onlar əlaçı tələbələr hesab olunurlar. Başqa sözlə desək, müalicə-profilaktika fakültəsinə dövlət hesabına qəbul olunmuş və 600-dən çox bal toplamış I əlaçılardır.

"Ölkə başçısı İlham Əliyev cənablarının sərəncamına əsasən təyin olunmuş 102 Prezident təqaüdçüsünün 25 nəfəri bizim universitetə daxil olmuşdur" – deyən prorektor artıq neçəinci ildir ki, universitetə qəbul olunan Prezident təqaüdçülərinin elə I kursdan aşağı qiymət alaraq bu adı itirmələrindən təəssüfləndiyini dilə gətirdi.



S.Əliyev çıxışının sonunda universitet kollektivinin cari tədris ilində əvvəllər buraxılmış nöqsanları aradan qaldırmağa, tələbələrlə aparılan tədris və tədris-metodik işi günün tələblərinə uyğun qurmağa çalışacaqlarına əminliyini bildirdi.

Məruzə ətrafında çıxış edən insan anatomiyası kafedrasının müdiri, professor Vaqif Şadlinski bəzi tələbələrin imtahana gəlməməyinin səbəblərinə toxundu, eyni zamanda təməl fənlərində dərs saatlarının azaldılması, rezidenturaya qəbul və rezidentlərin potasyası ilə bağlı fikirlərini bölüşdü.

Urologiya kafedrasının müdiri, AMEA-nın müxbir üzvü Sudeyf İmamverdiyev Boloniya sistemi ilə tədris başlayandan çoxlu problemlər yarandığını, tədrisin təşkili ilə bağlı yeni yanaşmalara ehtiyac duyulduğunu söylədi.

Biokimya kafedrasının müdiri, professor Arif Əfəndiyev isə öz çıxışında Boloniya sistemi ilə oxuyan tələbələrin cari mənimsəməsi ilə imtahan sessiyasının nəticələrinin bir-birinə uyğun gəlməsinin vacibliyinə diqqət yönəldərək kafedrada bu istiqamətdə aparılan işlərdən danışdı.

Kafedra müdirləri hesabatı qənaətbəxş qiymətləndirərək bu sahədə qazanılan uğurlardan, həmçinin mövcud çətinliklərdən söhbət açdılar. Həllini gözləyən problemlərlə bağlı təkliflərini irəli sürdülər.

Rektor Gəray Gəraybəyli müzakirələrə yekun vuraraq məruzə və çıxışlarda səslənən fikirlərə münasibətini açıqladı: "Bəzi məsələlərə mən də öz münasibətimi bildirmək istərdim. Birincisi, bugünkü çıxışlarda həddindən artıq pessimist rənglərlə qarşılaşdım ki, şəxsən mən bununla razı deyiləm. Doğrudan da öz həllini gözləyən müəyyən məsələlər var və biz onların həllinə çalışırıq. İkinci bir məsələ, istərdim ki, çıxışlarımızı keçmişi tənqid üzərində qurmayaq. Çünki keçmiş də biz özümüzük, əvvəlki illərdə də həmin tələbələrə biz dərs demişik. Bugünkü vəziyyət dünənkindən nə yaxşı, nə pis deyil. Eyni zamanda universitetimizin reytinqi əvvəlki illərdə olduğu kimi yenə yüksəkdir. Bunu əlaçı tələbələrin universitetimizə olan marağı da təsdiq edir. Düzdür, bu heç də o demək deyil ki, problemlərimiz yoxdur. Hər zaman olduğu kimi, bu gün də problemlər var. Ancaq gəlin keçmişə yox, gələcəyə baxaq, öz işlərimizi necə təkmilləşdirməyin yollarını düşünək".

Burada çox zəruri məsələlərin qaldırıldığını vurğulayan rektor Boloniya prosesi barədə səslənən fikirlər üzərində xüsusi dayandı: "Boloniya sisteminin yaxşı, yoxsa pis olması barədə müzakirələr aparmağa dəyməz. Çünki Azərbaycan artıq bu prosesə qoşulub. Ona görə də tədris prosesini ancaq bu sistem çərçivəsində təkmilləşdirməliyik. Yaxın günlərdə yaradılacaq işçi qrup mövcud test üsulu ilə aparılan imtahanları hansı yollarla təkmilləşdirməyin mümkünlüyünü araşdıracaq. Keçmiş zamanlarda aparılan hansısa imtahan üsullarına qayıtmaq isə qətiyyən mümkün deyil".

(davamı səh. 3-də)

# Rektor Prezident təqaüdçüləri ilə görüşdü

**Bu il ayrı- ayrı qruplar üzrə qəbul imtahanlarında ən yüksək bal toplayaraq ali məktəblərə daxil olmuş 102 tələbə ölkə başçısı cənab İlham Əliyevin sərəncamı ilə Prezident təqaüdünə layiq görülüb. Bunlardan 25-i bizim universitetin payına düşüb.**

Sentyabrın 27- də ATU-nun rektoru, professor Gəray Gəraybəyli 2016-2017- ci tədris ilində Azərbaycan Tibb Universitetinə daxil olan Prezident təqaüdçülərini qəbul edərək onlarla səmimi arzularını onlarla bölüşdü.

Bu şərəfli ada layiq görülən tələbələri təbrik edən universitetin rəhbəri çıxışında Azərbaycanın dövlət müstəqilliyini ikinci dəfə qazanmasından keçən illər ərzində respublikamızın həyatının bütün sahələrində, xüsusən də elm- təhsil sahəsində böyük uğurların əldə edildiyini önə çəkdi. Sözünə davam edən rektor bu sahəyə göstərilən dövlət qayğısından bəhs edərək ümummilli lider Heydər Əliyevin parlaq ideyalarının Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən layiqincə həyata keçirildiyini qeyd etdi.

Universitetdə prezident təqaüdçülərinə xüsusi diqqət və qayğının olduğunu dilə gətirən rektor "Prezident təqaüdçüsü" kimi şərəfli bir ada layiq görülən gənclərə bu mükafatın verilməsi tarixini xatırlatdı: "Ulu öndər Heydər Əliyev 2001-ci ilin 3 sentyabr tarixli Fərmanı ilə Azərbaycan Respublikasının ali məktəb tələbələri üçün prezident təqaüdünü təsis edib. Həmin vaxtdan etibarən hər il 100- dən artıq tələbə bu təqaüdə layiq görülür. Bu tarixi Fərmana uyğun olaraq Azərbaycan Prezidenti cənab İlham Əliyev 2016- 2017- ci tədris ilində yüksək balla ali məktəblərə daxil olmuş 102 tələbəyə prezident təqaüdünün verilməsi haqqında sərəncam imzalayıb. Uzun illərdir ki, Tibb Universiteti istər prezident təqaüdçüləri, istərsə də 600- dən yuxarı bal toplayan digər tələbələrin sayına görə ölkəmizin ali məktəbləri arasında reytinq cədvəli üzrə həmişə olduğu kimi yenə də birinci yerdədir. Sevindirici haldır ki, bu il də I kursa qəbul olunan tələbələrimiz arasında belə istedadlı gənclərimiz çoxdur. Bu il universitetimizə qəbul olunan 1002 tələbənin 419 nəfəri 600- dən yuxarı bal toplamışdır ki, onların arasında 3 nəfəri 700 balla ATU- ya daxil olub. Bu adın məsuliyyəti nə qədər çətindirsə onu qoruyub saxlamaq ondan da çətindir. Prezident təqaüdçüləri bizim universitetin şərəfidir. Biz belə tələbələrlə fəxr edirik. Universitetimiz günbəgün inkişaf edir. Sizin təhsil almağınız üçün bütün şərait var. Mən ümidvaram ki, siz bu şəraitdən yetərincə yararlanacaqsınız. Əminəm ki, siz təhsil aldığınız 6 il ərzində universitet divarları arasında öz bilik və bacarığınızı daha da artıracaqsınız".





700 balla ATU-nun II MPF-nin tələbəsi adını qazanan Səbinə İsmayılova Prezident təqaüdçüləri adından çıxış edərək onları bu şərəfli ada layiq görən ölkə başçısı cənab İlham Əliyevə təşəkkürünü bildirdi. Respublikamızın ən nüfuzlu ali məktəblərindən birində təhsil almaqdan qürur hissi keçirdiklərini, universitetin rektoru, professor Gəray Gəraybəylinin tövsiyələrini heç zaman unutmayacaqlarını söylədi.

Görüşün sonunda rektor G.Gəraybəyli universitetin həyat və fəaliyyətindən bəhs edən kitabı prezident təqaüdçülərinə hədiyyə etdi və onlarla xatirə şəkili çəkdirdi.

**Mənsur ƏLƏKBƏRLİ**

(əvvəli səh. 2-də)

# BÖYÜK ELMİ ŞURADA

G.Gəraybəyli qeyd etdi ki, bəzi kafedraları narahat edən məsələlərdən biri də çox miqdarda tələbənin imtahana gəlməməsidir. Bunun səbəblərindən birini araşdırdığını deyən rektorun sözlərindən aydın oldu ki, həmin tələbələr həlak adlarını çəkmək istəmədiyi fənlərdən hazır cavab əldə edə bilmədiklərinə görə imtahana girməyiblər.

Ancaq bugünkü hesabatda əsas məqsədin cari tədris ili ərzində görülən işlər haqqında məlumat vermək olduğunu vurğulayan rektor bildirdi ki, çox dərin, məzmunlu, universitetin fəaliyyətinin bir çox istiqamətini özündə əks etdirən məruzəni qənaətbəxş hesab etməli, görülən və görüləcək işləri dərindən təhlil edib gələcəyə addımlamalıyıq.

Yay aylarında universitetin nizamnaməsinin həm Səhiyyə Nazirliyi, həm Ədliyə Nazirliyi tərəfindən qeydiyyata alınaraq təsdiq olunduğunu diqqətə çatdıran G. Gəraybəyli əməkdaşların və tələbələrin öz fəaliyyətini bu nizamnamə çərçivəsində qurmalarının zəruriliyini önə çəkdi: "Çox vaxt söhbət saatlardan gedir. Sutkada 24 saat var, 25 saat etmək heç cürə mümkün deyil. Bəzən bu prosesi kənardan izləmək içəridən izləməkdən daha asandır. Təhsil Nazirliyi tərəfindən təsdiq olunmuş dövlət standartlarında müəyyən fənlərin minimum saatları göstərilib. Biz istəsək də, bunları azalda bilmərik. Artıq 2017-ci ildə Təhsil Nazirliyi tərəfindən yeni tədris standartlarının təsdiqi gözlənilir".

Bəzi kafedralarda əmək intizamının ciddi şəkildə pozulduğunu kəskin tənqid edən rektor kadrlar haqqında şişirdilmiş təqdimatların verilməsinə də iradını bildirdi.

Akademik Əhliman Əmiraslanovun təşəbbüsü ilə "Elektron Universitet"in yaradılmasına başlandığını söyləyən rektor qeyd etdi ki, bir çox modeldə onun istifadə olunması istər elm, istər gündəlik tədris prosesinə öz müsbət təsirini göstərəcək.

G.Gəraybəyli pediatriya fakültəsi haqqında burada deyilənlərə də aydınlıq gətirərək, bu məsələdə tədris işləri üzrə prorektor Sabir Əliyevin və tədris hissə müdiri Nəsimi Qasımovun fəaliyyətini yüksək qiymətləndirdi. Vurğuladı ki, əsas məqsəd fakültənin ləğv olunması ilə əlaqədar dərs yüklərini saxlamaq, heç bir əməkdaşın bu çətin zamanda öz işini itirməməsi idi və buna nail olduq: "Lakin bunu da diqqətinizə çatdırmaq istəyirəm ki, Təhsil Nazirliyinin müvafiq qanunlarına əsasən, eyni adlı və ya eyni ixtisaslı, eyni istiqamətli kafedralar mövcud olduqda və onların tədris yükü 10000 saatdan aşağı olduğu halda kafedralar birləşdirilməlidir. Bu proses bizim universiteti də gözləyir. Gələcəkdə heç kim bunu başqa cürə yozmasın. Biz qeyd elədik ki, bəzən saatlar azalır. Şəxsən mənim öz kafedramda 966 saat ixtisara salınmalıdır. Bu, müxtəlif səbəblərlə bağlıdır. Bu il universitetimizə 42 nəfər tələbə az qeydiyyatdan keçib. Yay ərzində 30-a yaxın tələbəmiz öz xahişi ilə universitetdən xaric olunub. Bu da bizim ümumi dərs yükümüzə təsirsiz ötüşmür".

Çox vacib bir məsələ olan rezident hazırlığının indiki durumuna da toxunan rektor bildirdi ki, baza fənləri üzrə rezidenturaya imtahanın III kursdan sonra verilməsi əsas təklif kimi gündəmdədir. Tələbəyə verilən imtahan vərəqi və yaxud sertifikat bir neçə il ərzində qüvvədə qalacaq. Beləliklə, VI kursdan sonra rezidenturaya qəbul olunmaq istəyən tələbə yalnız kliniki fənlərdən imtahan verəcək.

Tələbələrin yüksək səviyyədə hazırlanmasında kadrların rolundan danışan rektor müsabiqədə nəinki kafedrada işləyən, eyni zamanda kənardan öz namizədliyini vermək istəyən insanların da iştirak edəcəyini dedi: "Bəzi kliniki kafedralarda elə assistentlər, dosentlər var ki, illərlə xəstə qəbul etmirlər. Ancaq 5 il tamam olduqda "öz yerimə seçilirəm" iddiası ilə müraciət edirlər və tam əmindirlər ki, "öz yerləri"nə seçiləcəklər. Heç kimin öz yeri yoxdur. Hər bir əməkdaş rütbəsindən asılı olmayaraq universitet üçün vacibdirsə, heç kəs universitetdən vacib deyil. Ona görə də müasir kadrlar ilk növbədə sağlam rəqabət əsasında və mövcud saat yükü çərçivəsində universitetə cəlb olunacaqlar. Belə bir xətt aparılmalıdır ki, kafedrada işləyən əməkdaşlar 1 ştat vahiddə işləsinlər. Təəssüf ki, bir çox kafedrada 1 vahid ştatda işləyən bir nəfər də əməkdaş yoxdur. Təbiidir ki, belə kafedralara yeni adamları cəlb eləmək lazım deyil. Əgər saat yükü varsa, 0,5 və 0,25 ştatda işləyən əməkdaşlara vermək lazımdır ki, maaşları normal olsun, əlavə iş yeri axtarmaq məcburiyyətində qalmasınlar, daha da ürəklə dərs keçsinlər".

Məruzədə cari ildə görülən işlərin və qarşıda duran vəzifələrin tam əhatə olunduğunu söyləyən rektor birinci məsələni yekulaşdıraraq gündəlikdəki digər məsələləri müzakirəyə çıxardı.

Tədris hissə müdiri, dosent Nəsimi Qasımov məsləhətçi-professor vəzifəsini təsis etmək haqqında bəndin də daxil edildiyi "Azərbaycan Tibb Universitetinin Nizamnaməsi"nin tam mətnini şura üzvlərinin nəzərinə çatdırdı.

Kafedra müdirləri və dekan seçkisi üzrə komissiyasının keçən dərs ilində öz fəaliyyətini sona çatdırması haqqında da məlumat verildi. Bildirildi ki, Təhsil Nazirliyində yeni təkliflər hazırlanır. Kollegiyada yeni meyarlar və təkliflər təsdiq olunmalı, mövcud qanuna əsasən həmin komissiyanın iş müddəti yeni əsasnamə çıxana qədər davam etdirilməlidir.

Universitetin elmi katibi, professor Hüseyn Qabulov həmin komissiyanın qismən dəyişdirilmiş tərkibi ilə şura üzvlərini tanış etdi.

Eyni zamanda elmi vəzifəyə keçmək üçün beynəlxalq təcrübəyə əsaslanan kriteriyaların hazırlanması məqsədilə yaradılan yeni komissiyanın tərkibi də açıqlandı.

Yeni nizamnaməni, komissiyaların tərkibini və ATU-da bəzi fənlər üzrə semestr ərzində tədris fəaliyyəti haqqında aralıq məlumat cədvəlinin ləğv edilməsi haqqında təklifi təsdiqləyən Böyük Elmi Şura müsabiqə məsələlərini həll etməklə öz işini yekunlaşdırdı.

**Arif MƏMMƏDLİ**

**Fotolar Cənnətalı Çingizindir**

## BMT-yə üzv dövlətlər antibiotiklərə davamlılıq problemi ilə birgə mübarizə aparacaqlar

**BMT-yə üzv dövlətlər tarixdə ilk dəfə antibiotiklərə davamlılıqla və infeksiyaların yayılması ilə mübarizədə səyləri birləşdirmək barədə qərar qəbul ediblər. BMT Baş Assambleyasının 71-ci sessiyası çərçivəsində keçirilən yüksək səviyyəli iclasın iştirakçıları antibiotiklərə davamlılıq üzrə siyasi bəyannaməni dəstəkləyiblər.**



AZƏRTAC BMT-nin saytına istinadla xəbər verir ki, bu problem təhlükəli miqyas alıb. "Hesablamalara görə, hər il antibiotiklərə davamlı olan infeksiyalar səbəbindən iki yüz mindən artıq körpə ölə bilər", - deyə BMT-nin baş katibi Pan Gi Mun çıxışında bildirib.

Dünya Səhiyyə Təşkilatının rəhbəri Marqaret Çan da xəbərdarlıq edib ki, əgər tədbirlər görülməsə, ən sadə infeksiyalar yenidən ölümcül xəstəliklərə çevriləcək.

# Elmi işlərlə bağlı müzakirələr aparılıb

**Sentyabrın 24-də Azərbaycan Tibb Universitetində (ATU) elmi işlərin müzakirəsinə həsr olunmuş tədbir keçirildi. ATU rektoru, professor Gəray Gəraybəyli giriş nitqində tədbir iştirakçılarına qarşıda duran məsələlər haqqında qısa məlumat verdi. Rektor əsas məsələlərdən biri kimi Ali Attestasiya zamanı elmi rəhbərlərin maksimum 5 dissertantı olacağını bildirdi.**



Toplantıda elmi işlə məşğul olan əməkdaşların xarici dil üzrə minimum İELTS səviyyəsinə malik olması ilə bağlı tələb qoyulması təklif edildi. Qeyd olundu ki, son illər ATU-da təhsil almaq istəyən xarici tələbələrin sayı çoxalıb və bu baxımdan dil bilən müəllimlərə tələbat olduqca çoxdu. Digər təklif elmi mövzuların planlaşdırılması, o cümlədən elmi işlərin hazırlanması zamanı ATU-nun laboratoriyalarından istifadə ilə bağlı idi. Bu zaman universitetin tədqiqat laboratoriyalarından, klinikalarından istifadə edilməsi təklifi irəli sürüldü.

ATU-nun elmi işlər üzrə prorektoru Rauf Bəylərov Azərbaycan Prezidentinin 9 avqust 2016-cı il tarixli "Elm haqqında qanunun tətbiqinə dair" fərmanına əsaslanaraq bir sıra təkliflərlə çıxış etdi. Elmi araşdırmalar üçün impakt faktor və istinad indeksinin tətbiqinin əhəmiyyətini vurğuladı. Daha sonra irəli sürülən təkliflərlə bağlı müzakirələr aparıldı.

Daha sonra çıxış edən pediatr-allerqoloq, professor Amaliya Əyyubova, pediatrik profilli xəstələrin klinikaya axınını daha da artırmaq üçün həkimlərin ciddi səylə çalışdıqlarını vurğuladı.

İclas cari məsələlərin müzakirəsi ilə işini yekunlaşdırdı.





# Azərbaycan və Türkiyə arasında ikili diplom tətbiqi gündəmdədir

**Sentyabrın 23-də Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (Türk Şurası) nümayəndə heyəti ATU-da qonaq olub, universitet rəhbərliyi ilə görüşüblər. Görüşün məqsədi Türk Şurası və Azərbaycan Tibb Universiteti arasında qarşılıqlı əlaqələrin qurulması, mütəxəssis-tələbə mübadilələrinin reallaşdırılması işinin təşkilindən ibarət olub.**



ATU-nun beynəlxalq əlaqələr üzrə prorektoru Rəhimə Qabulova ilə keçirilən görüşdə Türk Şurası Baş katibinin müavini Ömer Kocaman Tibb Universiteti ilə bir çox sahələrdə əməkdaşlıq etmək, birgə tədbirlər keçirmək istəyində olduqlarını açıqladı. Onun sözlərinə görə, bu səfər qarşılıqlı əməkdaşlıq planının qurulması baxımından ilkin addım olacaq.

ATU-nun beynəlxalq əlaqələr üzrə prorektoru Rəhimə Qabulova qonaqları salamladıqdan sonra universitetin fəaliyyəti, tədris və təhsil sistemi, müəssisənin tərkibindəki klinikalar haqqında ətraflı məlumat verdi. ATU-nun Tədris-hissə müdiri Nəsimi Qasımov hər il onlarla tələbənin Türkiyədə, yüzlərlə tələbənin isə müxtəlif xarici ölkələrdə ixtisaslarını artırdığını bildirdi. N.Qasımov gələcəkdə Azərbaycan və Türkiyə tibb universitetləri arasında ikili diplom sisteminin tətbiqinin önəmli olacağını da qeyd etdi.

ATU-nun İnnovasiya şöbəsinin müdiri Akif Qurbanov və beynəlxalq əlaqələr şöbəsinin müdiri Nadir Zeynalovun da iştirak etdiyi görüşdə ölkəmizdə tibb təhsili sistemi, bu sahədə dövlət standartları, həmçinin Erasmus Mundus, Mövlanə Mübadilə proqramları, onların icrası ilə bağlı mövcud durum haqqında müzakirələr aparıldı.



# Uğurlu əməliyyat həyata keçirilib

**ATU-nun Tədris Cərrahiyyə Klinikasında "Total tiroidektomiya" – qalxanvari vəzin tamamilə çıxarılması üzrə uğurlu əməliyyat icra olunub. Bir il əvvəl 31 yaşlı qadın xəstə "Toksiki zob-qreys" diaqnozu ilə ATU-nun Tədris Cərrahiyyə Klinikasına müraciət edib. Bu müddət ərzində aparılan müalicəyə baxmayaraq, vəzdə toksikliyi aşağı salmaq mümkün olmayıb. Son müalicədən sonra xəstəyə cərrahiyyə əməliyyatı təklif olunub.**



Bu yaxınlarda xəstə Tədris Cərrahiyyə Klinikasında "Total tiroidektomiya" əməliyyatı olunub. Əməliyyat Klinikanın I cərrahi xəstəliklər kafedrasının əməkdaşı, tibb üzrə fəlsəfə doktoru, Türkiyə cərrahi dərnəyinin üzvi, cərrah-endokrinoloq Azər Hümmətov tərəfindən sinir cihazının müşayiəti ilə icra edilib.

Cərrah A.Hümmətov qeyd edib ki, "Total tiroidektomiya" əməliyyatının daha təhlükəsiz keçməsi, eyni zamanda sinir tellərinə zərər verməmək üçün sinir cihazından istifadə olunur: "Xəstədə saxlanılmış vəz toxuması müəyyən müddətdən sonra xəstəliyin təkrarlanmasına səbəb olur. Biz vəz toxumasını tam xaric edirik ki, təkrar əmələ gəlməsin. Sinir cihazı isə bizə toxumanı tam təhlükəsiz, bütöv çıxartmağa şərait yaradır".

Azər Hümmətovun sözlərinə görə, artıq xəstə evə yazılıb. Ona müvafiq əvəzedici hormon, eyni zamanda əməliyyatdan çıxan toxumanın həcminə uyğun olaraq dərman müalicəsi yazılıb. Xəstə 1 ay sonra təkrar müayinəyə gəldikdə, TSH göstəricisinə uyğun olaraq dərmanın dozası təyin olunacaq."

**ATU-nun mətbuat xidməti**

# Nobel mükafatçısı Tibb Universitetində mühazirə ilə çıxış etdi

**Sentyabrın 28-də Azərbaycan Tibb Universitetinin (ATU) Tədris Terapevtik Klinikasında Nobel mükafatçısının iştirakı ilə tədbir keçirildi.**



ATU-nun rektoru Gəray Gəraybəyli tədbiri açaraq, Azərbaycanda bir çox beynəlxalq tədbirlərin keçirilməsinin artıq gözəl bir ənənəyə çevrildiyini bildirdi. Rektor G. Gəraybəyli həmçinin qeyd etdi ki, böyük tədbirlərdən biri də ölkə Prezidenti İlham Əliyevin təşəbbüsü ilə paytaxtda başlayacaq V Bakı Beynəlxalq Humanitar Forumudur: “Bu Hu-



manitar Forum həm Azərbaycan, həm də digər ölkələr üçün böyük önəm daşıyır. Artıq ənənəvi olaraq, bu forum çərçivəsində bir çox qonaqlar, alimlər, müxtəlif tibb və digər sahələrdən olan mütəxəssislər Azərbaycana gəlir. Bizim ca-van mütəxəssislərlə, rezidentlər və tələbələrlə görüşlər keçirir, diskussiyalar aparırlar”.

Qeyd edək ki, V Bakı Beynəlxalq Humanitar Forumuna qonaq qismində qatılan israilli professor Avram Herşko Azərbaycan Tibb Universitetini ziyarət edib.

Avram Herşko İsrailin Hayfa şəhərində Rappaport Universitetinin və Nyu-York Universitetinin bioüzvi kimya üzrə professordur. O, digər israilli kimyaçılar Aaron Çexanovervə İrvin Rouzla birgə 2004-cü ildə biokimya sahəsi üzrə Nobel mükafatına layiq görülüb.

ATU rektoru G.Gəraybəyli A.Herşkonu ali məktəbin fəxri qonağı adına layiq gördü, onu diplom və universitetin medalı ilə təltif etdi.

Daha sonra söz alan professor Avram Herşko tədbir iştirakçılarına özü haqqında məlumat verdi. “İlk öncə burada olmaqdan çox məmnun olduğumu bildirmək istəyirəm. Azərbaycanda Tibb Universitetində gənc həkimlərin, rezidentlərin arasında olmaq mənə çox xoşdur. Mən hazırda Hayfa şəhərində Rappaport İnstitutunun və Nyu-York Universitetinin professoruyam. Azərbaycan və İsrail balaca ölkələr olsalar da, beynəlxalq əlaqələr istiqamətində böyük addımlara malikdirlər. İki ölkə arasındakı işgüzar münasibətlər inkişaf etməkdədir”.



Daha sonra israilli professor mühazirə ilə çıxış etdi. Tədbir mühazirə ətrafında suallarla davam etdi.

# Medipol Meqa Universitetinin nümayəndələri Tədris Cərrahiyyə Klinikasında

**Bu günlərdə Medipol Meqa Universitetinin nümayəndələri növbəti dəfə ATU-nun Tədris Cərrahiyyə Klinikasının qonağı oldu.**

Klinikanın direktoru Surxay Hadıyev qonaqlara gəldiyi üçün təşəkkürünü bildirərək, gələcəkdə birgə görüləcək işlərdən söz açdı.

Medipol səhiyyə qrupunun müəssisə direktoru, professor Özer Koca məqsədlərinin elm, təhsil sahəsində qarşılıqlı əməkdaşlıq çərçəvəsində əlaqələrin qurulmasından ibarət olduğunu bildirdi. Bununla yanaşı, müştərək elmi layihələrin hazırlanması, elmi-praktik konfransların, simpoziumlar və seminarların təşkili, tələbə, rezident və magistr mübadiləsi, həkim və müəllimlərin təcrübə mübadiləsinin həyata keçirilməsinə də diqqət veriləcəyini dedi.



Daha sonra klinikanın baş həkimi, dosent Asiman



Həsənov Tədris Cərrahiyyə Klinikasının Universitet Xəstəxanası olaraq məqsəd və hədəfləri, istər sağlıq, istər elm-tədris istiqamətindəki fəaliyyəti haqqında, əldə olunan son uğurlar, gələcəkdə nəzərdə tutulan planlar barədə qonaqlara geniş məlumat verdi. “Bizim klinikanın bütün şöbələrində Medipol Universitetinin hansı şöbələri ilə əlaqə yaratmaq istədiklərinə dair sorğu keçiriləcək və bunun əsasında əlaqələr qurulacaq”.

Görüşün davamında professor Nuru Bayramov Medipol Universitetinin xəstəxanasında olduğunu bildirərək, orada olan şərait haqqında öz müsbət rəylərini səsləndirdi.

# Koreyanın tanınmış tibb alimləri Tibb Universitetinin qonağı olublar

**Cənubi Koreyanın tanınmış alimləri, Tibbi Liderlər Korporasiyasının (MLC) geniş tərkibli nümayəndə heyəti Azərbaycan Tibb Universitetinin qonağı olub. Korporasiyanın prezidenti, professor Duck-Jong Hanın rəhbərlik etdiyi nümayəndə heyəti üzvlərinin universitetin rektoru, professor Gəray Gəraybəyli ilə görüşləri baş tutub.**



Görüşdə rektor G.Gəraybəyli rəhbərlik etdiyi ali təhsil müəssisəsinin fəaliyyəti haqqında məlumat verib. ATU-nun Azərbaycanda yeganə tibb təhsili verən ali qurum olduğu qeyd edilib. 1930-cu ildən müstəqil universitet kimi fəaliyyətdə olan Tibb Universitetinin hazırda 8000-ə yaxın tələbə və rezidenti var ki, onlar arasında 1000-dən çoxu xarici tələbədir.

Rektor, professor Gəray Gəraybəyli həmçinin ATU-nun müasir tibb avadanlıqları ilə təchiz olunmuş 4 klinikasının fəaliyyət göstərdiyini, burada həm tədris prosesinin həyata keçirildiyini, həm də əhaliyə keyfiyyətli tibb xidməti göstərildiyini bildirib.

Orqan nəqli üzrə dünya şöhrətli alim, transplantoloq, MLC-nin prezidenti professor Duck-Jong Han dəvət üçün ATU rəhbərliyinə təşəkkür edərək səfərin məqsədləri haqqında məlumat verib. Qeyd edib ki, Koreya Tibbi Liderlər Korporasiyası Azərbaycandan olan professor-həkimlərlə əməkdaşlığın qurulmasında çox maraqlıdır.

Qeyd edək ki, Koreyadan gələn nümayəndə heyətinə transplantoloq, MLC-nin prezidenti Seuldakı Asan Klinikasının professoru, professor Duck-Jong Han, Koreya Mərkəzi və Cənubi Amerika Assosiasiyasının sədr müavini Soong Chull Shin, MLC-nin baş katibi Sang Min An daxildirlər.

Qonaqlar ATU-nun Tədris Cərrahiyyə və Tədris Terapevtik Klinikasını gəzib, klinikanın müxtəlif şöbələri, o cümlədən Tədris Treyninq Mərkəzindəki simulyasiya otaqları ilə tanış olublar. Mərkəzin şöbə müdiri, tibb elmlər namizədi, Dos. Dr. Qorxmaz Əhmədov qeyd edib ki, simulyasiya otaqları tələbə, həkim-rezidentlər üçün nəzərdə tutulub və dünya standartlarına uyğun ən müasir avadanlıqla təchiz olunub.

ATU-nun Tədris Cərrahiyyə Klinikasında Koreyadan olan alimlərin iştirakı ilə toplantı da baş tutub. Tədris Cərrahiyyə Klinikasının direktoru, professor Surxay Hadıyev son illər Koreya ilə Azərbaycan dövlətləri arasında əməkdaşlığın daha da gücləndiyini qeyd edib: “Son illər iki ölkə arasında müxtəlif sahələrdə əlaqələr yaradılıb. Səhiyyə sahəsində də mühüm addımlar atılıb. Hətta 2007-ci ildə Koreyadan gələn həkim briqadası Qəbələdə olmuş və öz təcrübələrini bizim həkimlərlə bölüşmüşdülər. Ümid edirəm ki, aramızdaki körpü daimi olacaq”. Öz növbəsində professor Duck-Jong Han Azərbaycanda olmaqdan məmnunluğunu ifadə edərək Seulda fəaliyyət göstərən Asan Klinikasının fəaliyyəti haqqında məlumat verib. Onun sözlərinə görə, Koreyada ilk dəfə 1992-ci ildə vəfat etmiş şəxsdən mədəaltı vəz və böyrək köçürülməsi əməliyyatı həyata keçirilib. Asan tibb mərkəzi 2000-ci ildə 1000-ci böyrək köçürülmə əməliyyatını icra edib.

Daha sonra professor Duck-Jong Han “Böyrək və pankreasın köçürülməsi” mövzusu üzrə maraqlı mühazirə ilə ATU tələbələri və rezidentləri qarşısında çıxış edib. Qeyd edib ki, indiyədək 4000 böyrək, 300 mədəaltı vəz transplantasiyası həyata keçirilib. Koreyada ən kiçik donor 4 aylıq, ən yaşlısı isə 80 yaşında olub.

Mühazirədən sonra koreyalı professor tədbir iştirakçılarının suallarını cavablandırıb.

**ATU-nun mətbuat xidməti**

# GÖRKƏMLİ ALİMİN XATİRƏSİ ANILDI

**Azərbaycan elmi anatomiya məktəbinin banisi, görkəmli pedaqoq və ictimai xadim, 36 il N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun normal anatomiya kafedrasının müdiri, 17 il ATİ-nin tədris işləri üzrə prorektoru, uzun illər Azərbaycan SSR Elmlər Akademiyasının "Tibbi Terminologiya Komitəsi"nin sədri vəzifələrində çalışmış əməkdar elm xadimi, tibb elmləri doktoru, professor Kamil Əbdül Salam oğlu Balakişiyevin doğum günündən 110 il keçir.**

K.Balakişiyev 1906-cı il sentyabrın 20-də Bakının Novxanı kəndində anadan olub. O, tam orta təhsilini Bakıdakı rusdilli gimnaziyada bitirib. Onun gimnaziya təhsili illərində bütün fənlərdən əla qiymətlər aldığına, fitri istedada malik olduğuna, nümunəvi mənəvi keyfiyyətlərinə görə 8 illik gimnaziya təhsilini 5 ilə tamamlamasına görə qərar qəbul edilib və o, təhsil haqqı ödənişindən azad olunub.

Gənc K.Balakişiyev gimnaziyanı bitirdikdən sonra cərrah olmaq həvəsi ilə 1921-ci ildə sənədlərini Bakıda yenicə təşkil edilmiş Bakı Universitetinin tibb fakültəsinə təqdim edib və həmin fakültəyə qəbul olunub.

Onun hələ birinci kurs tələbəsi ikən yüksək fədakarlıq və əzmkarlıqla çalışması, rus dilində də ana dilində olduğu kimi dolğun erudisiya nümayiş etdirməsi müəllimlərinin diqqətindən yayınmırdı. 1922-ci ildən Bakı Universitetinin normal anatomiya kafedrasının müdiri vəzifəsində çalışan Kubandan gəlmiş professor K.N.Malinovski K.Balakişiyevin istedadının gizli ştrixlərinin, potensial imkanlarının üzə çıxmasına daha çox səy göstərirdi. Böyük rus aliminin gənc Azərbaycan oğluna göstərdiyi diqqət və qayğı onun sonrakı həyat yoluna ciddi təsir göstərdi. Beləliklə, professor K.N.Malinovskinin Azərbaycan tibb elmi, tibb təhsili qarşısında göstərdiyi ən böyük xidmətlərindən biri də onun yüzlərlə, bəlkə də minlərlə tələbənin içindən Kamil Balakişiyevi kəşf edib və çıxarması, gələcəkdə onun təkcə Azərbaycanda deyil, dünyada tanıtmasına, onun vasitəsi ilə də dünya alimlərinin diqqətinin Azərbaycana cəlb edilməsinə zəmin yaratması olmuşdur.

Professor K.N.Malinovskinin razılığı və rəhbərliyin icazəsi ilə K.Balakişiyev III kurs tələbəsi ikən kafedrada preparator vəzifəsində işə qəbul edilib. Gənc tələbənin bacarığına, istedadına heyran qalan alim tədris tarixində nadir rast gələnən bir addım atmış, K.Balakişiyevin hələ III kurs tələbəsi ikən I kurs tələbələrinə anatomiyadan dərs deməsinə icazə verilməsinə nail olmuşdur. K.Balakişiyevin institutu bitirdikdən sonra K.N.Malinovskinin təklifi və zəmanəti ilə normal anatomiya kafedrasında prozektor vəzifəsində saxlanılması gəncin gələcək taleyini, fəaliyyət dairəsini birdəfəlik müəyyənləşdirib. O, bu kafedrada assistentlikdən professor, kafedra müdiri vəzifəsinə qədər yüksəlib.

K.Balakişiyevin ilk elmi əsəri sonuncu kurs tələbəsi olarkən kafedranın assistenti Asya İsaakovna Belenkaya ilə birgə müəlliflikə çap olunmuşdur. Sonralar tale elə gətirib ki, bundan 14 il sonra A.Belenkaya 1940-cı ildə professor Kamil Balakişiyevin elmi məsləhətçiliyi altında doktorluq dissertasiyası müdafiə edib. K.Balakişiyev bu müddətdə nurlu bir ulduz kimi parlamağa, ətrafına işıq saçmağa başlayıb. O, 1930-cu ildə privat dosent, sonra isə dosent vəzifələrinə seçilib. Daim elmi axtarışlar aparan alim pedaqoji işlə yanaşı, elmi və ictimai işlərlə də ciddi məşğul olubdu.

1930-cu ildə indiki Bakı Dövlət Universiteti nəzdində uğurla fəaliyyət göstərən tibb fakültəsinin maddi-texniki bazası əsasında Azərbaycan Dövlət Tibb İnstitutu yaradıldıqdan sonra Azərbaycan bölməsində (BDU-nun tibb fakültəsində dərslər ancaq rus dilində aparılırdı) təhsil alan tələbələr dərsliksiz qalmışdılar. Ona görə də 1932-ci ildə ATİ-nin yaradıcılarından biri və eyni zamanda rektoru olan görkəmli elm və dövlət xadimi professor Əziz Əliyev göstəriş vermişdi ki, mövcud olan hər kafedrada təcili şəkildə orada tədris edilən fənnin profilinə uyğun olaraq Azərbaycan dilində dərsliklər yazılsın. Normal anatomiya kafedrasında bu işin öhdəsindən yalnız K.Balakişiyev gələ bilərdi və ona görə də bu çətin iş ona həvalə edildi.

K.Balakişiyev ona tapşırılan işlərin öhdəsindən bacarıqla gəldi və tezliklə o, Azərbaycan dilində (o zamankı deyimə görə – türk dilində) anatomiyanın bütün bölmələri üzrə orijinal dərs kitabları yazmağa başladı. O, bu illər ərzində həm də Azərbaycan-latın-rus dillərində "Tibb terminləri lüğəti" adlı kitablar yazdı. Azərbaycan dilində yazılan bu silsilə kitablar tibb sahəsində çalışan alimlərin ayrı-ayrı fənlər üzrə orijinal dərsliklər yazmalarına geniş imkanlar yaratdı.

Yeri gəlmişkən qeyd edək ki, akademik Mustafa bəy Topçubaşov K.Balakişiyevin 1976-cı ildə kafedrada təşkil edilən 70 illik yubileyi tədbirində xatirələrini söyləyərkən demişdi ki, mən K.Balakişiyevin ruhu qarşısında baş əyirəm. Ona görə ki, əgər K.Balakişiyev Azərbaycan dilində tibbi terminologiya tərtib etməsəydi, mən 5 cildlik "Cərrahiyyə" adlı dərsliyi yazıb başa çatdıra bilməzdim. Azərbaycan dilində tibb terminlərinin olmaması böyük çətinliklər yaradırdı. Professor Kamil Balakişiyev bizi bu çətinliklərdən xilas elədi. Bu da onun alim böyüklüyünün təzahürlərindəndir.

K.Balakişiyev 1948-1959-ci illərdə dünyada analoqu olmayan 4 cildlik "İnsanın normal anatomiyası" adlı dərslikləri çap etdirib tələbə və həkimlərin ixtiyarına verdi. 1964-cü ildə isə latın, Azərbaycan və rus dillərində yazdığı "Anatomik Terminologiya" kitabı işıq üzü gördü. Bu kitablar hazırda da öz qiymətini və əhmiyyətini nadir bir inci kimi saxlayır.

K.Balakşiyevin apardığı elmi-tədqiqat işlərinin əsas istiqamətini periferik sinir sisiteminin və vəzilərin morfogenezi struktur elementləri, onların fərdi, cinsi və yaş xüsusiyyətlərinin təhlili, əldə olunan nəticələrin səhiyyə təcrübəsinə tətbiqi təşkil edirdi. Onun yaratdığı elmi məktəbin tələbələri də bu son dərəcə aktual sayılan və hazırda da öz əhəmiyyətini qoruyub saxlayan mövzular ətrafında namizədlik və doktorluq dissertasiyaları müdafiə edirdilər.

1936-ci ildə K.Balakişiyev bel kələfinin ən böyük şaxələrindən olan bud sinirinin makro-mikroskopik anatomiyasının öyrənilməsi üzrə apardığı silsilə elmi-tədqiqat işlərinin nəticələrinə görə tibb elmləri namizədi elmi dərəcəsinə, 1937-ci ildə isə paralel olaraq yerinə yetirdiyi sidik kanalı soğanağı vəzilərinin (Meri və ya Kuper vəzilərinin) hərtərəfli mükəmməl tədqiqinə əsasən dissertasiya müdafiə edib və tibb elmləri doktoru elmi dərəcəsinə layiq görülüb. Elə həmin ildə professor elmi adı təsdiq edilən alim həm də normal anatomiya kafedrasının müdiri vəzifəsini yerinə yetirməyə başlayıb və ömrünün sonuna qədər bu vəzifəni şərəflə yerinə yetirib. Qeyd etmək lazımdır ki, professor K.Balakişiyevin adı normal anatomiya kafedrasının ondan əvvəlki müdirləri sırasında ilk milli kadr kimi tarixin yaddaşına əbədi həkk olunub. Ondan əvvəl kafedra müdiri vəzifəsində çalışan alimlərdən heç biri (K.N.Malinovski istisna olmaqla)-nə professor V.İ.Razumovski, nə də professor N.İ.Anserov milli kadr hazırlanmasında elə bir ciddi cəhd göstərməyiblər. Lakin professor K.Balakişiyev kafedra müdiri vəzifəsinə seçildikdən sonra Ağa Mehdi Əlizadə, Səlim Həsənov, Rafi Muğanlinski, Əlisəttar Sultanov, Gülağa Hacıyev, Həbib Həbibli, Bikəxanım Əlizadə, Əli Şuşinski, Məmmədsadıq Abdullayev, Şükufə Rəhimova, Rafiq Əsgərov, Məmməd Cahangirov, Əbusaleh Salayev və digərləri namizədlik, həmçinin Asya Belenkaya, Əlisəttar Sultanov, Gülağa Hacıyev, Məmmədsadıq Abdullayev, Rafiq Əsgərov, Məmməd Cahangirov doktorluq dissertasiyası müdafiə edərək müvafiq şəkildə tibb elmləri namizədi və tibb elmləri doktoru elmi dərəcələrinə, dosent və professor elmi adlarına layiq görülüblər.





Professor K.Balakişiyev uzun illər SSRİ Anatom, Histoloq və Embrioloqlar Elmi Cəmiyyətinin üzvü, Azərbaycan Anatom, Histoloq və Embrioloqlar Elmi Cəmiyyətinin sədri vəzifələrində çalışıb.

Görkəmli alimin rəhbərlik etdiyi kollektiv 1941-1945-ci illər müharibəsi dövründə arxa cəbhədə fədakarlıq və əzmkarlıqla çalışaraq vətən üçün, cəbhə üçün savadlı həkimlər ordusunun hazırlanmasında gecə-gündüz yorulmaq bilmədən fəaliyyətlərini davam etdirərək əsl qəhrəmanlıq nümunəsi nümayiş etdiriblər. Çünki həmin dövrdə əksər müəllimlər ön cəbhəyə-döyüş zonasına göndərilmişdilər. Arxa cəbhədə qalan kontingent əsasən qadınlardan, tədrisdə misilsiz xidmətləri olan tək-tək yaşlı kişi kadrlardan, eləcə də hələ institutu bitirməmiş yuxarı kurs tələbələri olan gənclərdən ibarət idi. Onlar ikiqat qüvvə ilə fəaliyyət göstərirdilər. Elə bu illərdə professor K.Balakişiyevin arxa cəbhədə tibb elminin və təhsilinin inkişafında, eləcə də tibbi kadrlar hazırlığı üzrə yerinə yetirdiyi əvəzsiz xidmətlər dövlət tərəfindən yüksək qiymətləndirilmiş və o, "Əməkdar elm xadimi" fəxri adına layiq görülmüşdür.

Professor K.Balakişiyevin hazırladığı milli kadrların əksəriyyəti normal anatomiya kafedrasında əsl həyat məktəbi keçdikdən, püxtələşdikdən sonra Azərbaycan Dövlət Tibb İnstitutunun digər kafedralarında, eləcə də Moskvada, Sankt-Peterburqda, Ukraniyada, Rusiyanın digər şəhərlərində aparıcı mütəxəssis, kafedra müdiri vəzifələrində çalışırdılar və onlardan bəziləri fəaliyyətlərini hazırda da davam etdirirlər.

K.Balakişiyev Azərbaycan Dövlət Tibb İnstitutunda tədris işləri ilə məşğul olan əməkdaşların ön cəbhəsində dayanırdı. Ona görə də o, 1946-1963-cü illərdə 17 il müddətində professor Bahadur Eyvazovun rektorluğu dövründə Tibb İnstitutunun tədris işləri üzrə prorektoru vəzifəsində çalışmışdır. Görkəmli alim bu işi də zərgər dəqiqliyi, billur çeşmə təmizliyi, vicdan səsinin nəcib hökmü ilə yerinə yetirdi. Ona görə də hamı onu ölkəmizin ən təvazökar, ən xeyirxah pedaqoqlarından biri kimi tanıyırdı. Alim hazırda da onu tanıyanların qəlbində elə bu paklığı, bu saflığı ilə yaşayır.

Professor K.Balakişiyevin tibb təhsilinin və tibb elminin inkişafı, tibbi kadrların hazırlanması yolunda göstərdiyi xidmətlər dövlət və xalq tərəfindən yüksək qiymətləndirilib. O, vətənin orden və medallarına, mükafat və təltiflərinə layiq görülüb. Bakı şəhərində onun adını daşıyan küçə vardır. Kafedrada, onun yaratdığı unikal elm və tədris muzeyində Balakişiyev guşəsi yaradılıb, orada onun büstü qoyulub. Bu guşə hər gün müəllim və tələbələr tərəfindən ziyarət edilir.

Hər il olduğu kimi, bu il də sentyabrın 20-də ATU-nun insan anatomiyası kafedrasının əməkdaşları professor K.Balakişiyevin II Fəxri Xiyabandakı qəbrini ziyarət etdilər. Alimin anadan olmasının 110 illiyi anıldı, onun haqqında xatirələr söyləndi.

ATU-nun rektorluğunun icazəsi ilə bu ilin dekabr ayında professor K.Balakişiyevin anadan olmasının 110 illik yubileyi münasibəti ilə elmi konfrans keçiriləcəkdir.

Kamil Balakişiyev irsi daim yaşayır və yaşayacaqdır. Allahdan ona rəhmət diləyir, qəbri nurlu dolsun, - deyirik.

**VAQİF ŞADLİNSKİ,**
*ATU-nun insan anatomiyası kafedrasının müdiri, Rusiya Elmlər Akademiyasının akademiki, əməkdar elm xadimi, professor*

# HƏKİMLİK HAQQINDA DÜŞÜNCƏLƏR

**Təbiət incəsənətin əbədi nümunəsi, insan isə təbiətin ən mükəmməl, şah əsəridir. İnsan yer üzünün zinətidir. Həkim də öz fəaliyyəti ilə hər şeyə qadir olan, hər şeyi yaradan insana xidmət göstərir. Ona insan sağlamlığı, bütünlükdə insan həyatı etibar edilir. Buna görə də bir mütəxəssis və vətəndaş kimi həkimdən çox şey tələb olunur. Həkimlik həmişə müqəddəs sənət kimi qiymətləndirilmiş, xalq həkimləri həmişə sevmiş, onlara dərin hörmət göstərmişdir.**



Dünyanın bir sıra görkəmli alim və filosofları, şair və dramaturqları, dövlət xadimləri eyni zamanda həkim olmuşlar. Çexov hekayələrinin şirinliyi, Şiller dramaturgiyasındakı heyrətamiz məntiq, Səhhət poeziyasındakı vətənpərvərlik və həzinlik, Konan Doylda təxəyyül və fikir dərinliyi, Nərimanov yaradıcılığındakı müdriklik onların həkimliyi ilə bağlıdır. Dünya poeziyasının ən parlaq ulduzları Nizami, Füzuli həkimə olan hörmət, inam, sevgi, həkim sənətinin ülviliyi və narahatlığı haqqında incə fikirlər söyləmişdilər.

Qədim hind xalq eposu "Ayur Veda"da həkim haqqında deyilib: "Həkim xəstə üçün ata, sağalmaqda olanlar üçün keşikçi, sağlam üçün dost olmalıdır. O xəstədə sağalma ümidini artırmalıdır".

Təbabətin atası Hippokrat yazır ki, "həkimin gümrah olması və renginin sağlamlığı onun nüfuzunu artırır".

**Sağlam bədəndə, sağlam ruh olar.** Həkim təmiz geyinməyi və davranmağı bacarmalıdır. O xasiyyətcə də gözəl, mehriban, dəyanətli və insanpərvər olmalıdır.

**Həkim , özün haqqında düşün.** Həkimin qəmgin görkəmi, bədbinliyi həssas xəstələrə pis təsir edir. Madam ki, bir–iki şirin sözlə xəstənin könlü xoş olacaq, ondan imtina etmək qəddarlıq deyilmi? Axı, təbəssüm ən asan bir yaxşılıqdır.

Həkim 5 ballı sistemdə həkimlik etikasından mütləq 5 almalıdır, insanlara laqeyd, sərt olmamalıdır. Laqeydlik – qəlbin əclaflığıdır. Kim yüksək həkim adını şərəflə daşıya bilmirsə, bu ad onu əsla yüksəltmir, daha da alçaldır.

Prussiya kansleri Bismark xəstələnir. Onu müayinə etmək istəyən həkimlərin mütiliyi kanslerdə inamsızlıq yaradır. Şvenniger adlı həkim Bismarkı sorğuya tutduqda o cavab vermir. Bu halda həkimin "mən baytar həkimi deyiləm" kəlməsindən sonra kansler həkimə tabe olur və onu özünün şəxsi həkimi edir.

Oxuduğuna əməl etməyən alim – həkim məşəl gəzdirən kora bənzəyir. Xəstə hiss etməlidir ki, həkim onun sağalması üçün çalışır, narahatdır. Həkim xəstəni sağalda biləcəyinə ilk növbədə özü inanmalıdır. İnamı, əqidəsi olmayan həkim kompassız gəmi kimidir.

*Yaşaya bilərəm odsuz, alovsuz,*
*Yaşaya bilərəm çörəksiz, susuz.*
*Yaşaya bilərəm yüz il yuxusuz,*
*Yaşaya bilməram bir gün inamsız.*

İnamı öldürmək adam öldürməyə bərabərdir. Xəstənin sağalacağına ümidsizliyi ən ağır mənəvi əzab və işgəncədir. Qızılı payız fəslinin sonuna yaxın xəstə ağacın budağındakı son yarpaq düşəndə öləcəyini bildirəndə həkim xəlvəti olaraq yarpağı ağaca bağlatdırır. Günlər keçdikcə yarpaq düşmədiyindən xəstədə sağalmağa inam yaranır və o tədricən sağalır.

Sevimli şairimiz S.Vurğun Pekində olarkən xəstəliyi ağırlaşır. Qürbət eldə "əcəl"in onunla bacarmayacağına özündə inam yaradan şair yazır:

*Vaxtsız əcəl, məndən uzaq dayan, dur,*
*Qürbət eldə can vermərəm ölümə.*
*Qılıncını məndən uzaq dolandır,*
*Onu bil ki, qələm aldım əlimə,*
*Qürbət eldə can vermərəm ölümə.*

Bu inam şairin Vətənə sağ qayıtmasına səbəb olmuşdur.

Dueldə ağır yaralanan A.Puşkin müayinədən sonra həkimdən öz vəziyyətini soruşur. Həkim şairin dahiliyini, qorxmazlığını, təxirəsalınmaz, vacib işlərinin olduğunu nəzərə alıb ona həqiqəti açmış, vəziyyətinin ümidsiz olduğunu demişdir. Həkimlik etikası və humanizmi baxımından həkim düzgün hərəkət etməmiş, həkim andını – "zərər yetirmə" kəlamını pozmuşdur. Qabaqcadan huşu, əqli başında olan xəstəyə "ümid yoxdur" sözünü demək insafsızlıq, ömrü gödəltmək, xəstəni sarsıtmaqdır. Həkimin dahiliyi, həssaslığı ondan ibarətdir ki, o xəstənin ümid çırağını yandırmalı, inamını qorumalıdır. Hər kəsin inamını itirən daha nə itirsin? Atalar demişlər: "Ümid bədəndən son nəfəslə çıxar".

*Hər ümidsiz işdə xeyli ümid var,*
*Qaranlıq gecədən ağ səhər doğar.*

Amerikalı professor Kulinin ürək köçürdüyü xəstələrdən biri əməliyyatdan altı ay sonra demişdir: "Nə qədər ki, tabutumun qapağı örtülməyib, mən özümü meyit hesab etməyəcəyəm". Bəs onda həkimlər hansı əsasla, hansı hüquqla xəstənin "tabutunun qapağını" vaxtından əvvəl örtmək istəyirlər. Belə həkimlər gec–tez insan qatilinə çevrilirlər.

Avropanın bir sıra ölkələrində həkimlik sirrini açanlar cinayət məsuliyyətinə cəlb olunur, İtaliyada isə həkimlik adından məhrum edilirlər. Gözəl qanundur! Elə deyilmi?

İnsan xəstələndikdə etibarlı bir şəxsə-həkimə ümid bəsləyir. Həkim, ya ümidsizsiniz, ya da ümid sizsiniz, ya çarəsizsiniz, ya da çarə sizsiniz. Bu ümid ülvidir, müqəddəsdir. Eldə bir məsəl var: "Günəş girməyən evə həkim girər". Günəşi Allah hesab edən qədim azərbaycanlılar onu əvəz edən yeganə varlıq kimi həkimə inanmışlar. Həkim xəstənin qəlbindən keçənləri duymaq qabiliyyətinə malik olmalıdır.

Həkim öz təbiəti ilə səxavətli bahar buludu olub, leysan yağışı kimi hamıya can bağışlamalıdır. Yaşamaq – başqası üçün yaşamaq deməkdir. Həqiqi dahi o həkimdir ki, onun ürəyi hamı üçün döyünsün.

Dünyada ən yaxşı ləzzət və böyük fərəh–özünün başqasına lazım olduğunu hiss etməkdir. Öz xalqı tərəfindən sevilmək hər kəsin ən böyük arzusudur. Əsil həkimlər belə xoşbəxt insanlardır, xoşbəxtliyə isə malik olmaq azdır, xoşbəxtliyə layiq olmaq lazımdır.

**Vahid HÜSEYNOV,**
*tibb üzrə fəlsəfə doktoru,*
*I daxili xəstəliklər və reanimatologiya kafedrasının assistenti*

## Tibb xəbərləri

# Qalxanvari vəzin hormon artıqlığı ürəyin dayanması ilə nəticələnə bilər

**Qalxanvari vəzin hormon səviyyəsi azca yüksək olan insanlar ani ürək dayanmasından həyatını itirə bilər. Bu, Erazm Universiteti mütəxəssislərinin yeni tədqiqatlar nəticəsində gəldiyi qənaətdir.**



AZƏRTAC "meddaily.ru" saytına istinadla xəbər verir ki, tədqiqatçılar 10 mindən çox insanın məlumatlarını təhlil ediblər. Tədqiqat zamanı qalxanvari vəzin hormon səviyyəsi normadan yuxarı olan adamlarda qəfil ürək dayanmasından ölüm hallarının hormon səviyyəsi aşağı olanlarla müqayisədə 2,5 dəfə çox olduğu müəyyənləşib. Bundan başqa, araşdırmada qalxanvari vəzin hormon səviyyəsi yüksək olan könüllülər də iştirak ediblər. Aydın olub ki, onların 10 ildə ürək dayanmasından ölmə ehtimalı əks səviyyəli iştirakçılara nisbətən 4 dəfə yüksəkdir.

Ekspertlər nəticələrə təsir edə biləcək amilləri, o cümlədən xolesterol və qan təzyiqini nəzərə alıblar. Onlar bu nəticəyə gəlib ki, hormonların artıqlığı ürəyin fəaliyyətini pozur. Qalxanvari vəzin hormon artıqlığına səbəb çox vaxt onun hiperfunksiyasıdır. Lakin hormon səviyyəsi çoxlu sayda dərman qəbulundan da arta bilər.

# Dərmanların qeydiyyatı və qiymətlərin tənzimlənməsi qaydalarında müəyyən düzəlişlər ediləcək

**Tarif Şurası və Səhiyyə Nazirliyinin birgə əməkdaşlığı çərçivəsində Azərbaycanda dərmanların qiyməti 2-3 dəfə enib. Ümumilikdə isə ölkəmizdə dərmanların 90 faizinin qiyməti düşüb.**



AZƏRTAC xəbər verir ki, bu barədə səhiyyə nazirinin müavini Elsevər Ağayev jurnalistlərə açıqlamasında məlumat verib. Bunun mütəmadi proses olduğunu deyən E.Ağayev bildirib ki, yeni qeydiyyatdan keçirilən dərman preparatlarının qiyməti Tarif Şurası tərəfindən müəyyənləşdiriləcək.

Dərman şirkətlərinin xarici valyuta ilə bağlı Azərbaycan hökumətinə ünvanladığı müraciətə toxunan nazir müavini deyib ki, bu məsələ artıq müsbət həllini tapıb. O, dərmanların qeydiyyatı və qiymətlərinin tənzimlənməsi qaydalarında müəyyən düzəlişlər ediləcəyini də söyləyib.

# Beyin qocalma prosesi ilə mübarizə apara bilər

**Qocalma prosesində koqnitiv funksiyalar zəifləyir**



AZƏRTAC "The Times of India" saytına istinadla xəbər verir ki, Almaniyanın Rur Universiteti mütəxəssislərinin apardığı tədqiqat beynin qocalma prosesinin qarşısını ala bilmək imkanını üzə çıxarıb. Tədqiqatçılar aşkar ediblər ki, yaşla əlaqədar olaraq insanın hadisələri kateqoriyaya ayırma bacarığı dəyişir.

Yaşlı adamlarda informasiyanı təsnif etmək, diqqəti bir məsələdən digərinə yönəltmək daha çətin olur. Lakin beyin bunu kompensasiya edir. Məlum olub ki, yaşlı insanlar cavanlardan fərqli olaraq incəliklərə daha çox diqqət yetirirlər. Eksperiment aparan alimlər könüllülərə müxtəlif rəngli dairələri iki qrupa ayırmağı məsləhət görüblər. Bəzi dairələr oxşar olub, yerdə qalanlar isə kəskin fərqlənib. Eksperiment prosesində əks əlaqə iştirakçılara dairənin hansı kateqoriyaya aid olmasını başa düşməkdə kömək edib. Tədqiqatçılar könüllülərin cavablarını qeydə alıb, habelə onların beyin fəallığını və gözlərinin hərəkətini izləyiblər.

Mütəxəssislər müşahidə ediblər ki, gənc və yaşlı iştirakçılar oxşar dairələri qruplar üzrə asanlıqla ayırıblar. Lakin böyük fərqə malik dairələr meydana çıxanda yaşlılar çətinlik çəkiblər. Beynin skan edilməsi göstərib ki, könüllü yaşlılar seçim zamanı gənclərdən fərqli olaraq incəliklərə daha çox diqqət ayırıblar. Eksperimentin nəticələri göz hərəkətlərinin təhlilindən sonra təsdiqlənib.

# İsveçrə dizaynerləri qızıl və qiymətli daşlardan eynək hazırlayıblar



**◆ İsveçrənin "Silhouette" şirkəti modern üslubda "Atelier Collection" optik linzalı eynək kolleksiyasını satışa çıxarıb. Bu eynəklərin hazırlanmasında çəhrayı, sarı və ağ qızıl, habelə qiymətli daşlardan istifadə olunub. Ən ucuz eynəyin qiyməti 13 min dollardır.**

"Titanium meet`s Gold" kişi eynəyinin qızıl tağları əllə cilalanıb. "Art de Fleurs" qadın eynəyi 72 brilyant və yaqutla bəzədilib. Yaqutlar mavi və ya çəhrayı sapfirlə əvəz edilə bilər.

Bu ilin iyununda "Damiani" şirkəti də "Mimosa" gün eynəyi kolleksiyasını qızıl və brilyant sağanaqlı eynəklərlə tamamlamışdı. Kolleksiyaya üç model daxil idi.

AZƏRBAYCAN RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİ
AZƏRBAYCAN TİBB UNİVERSİTETİ

## KAFEDRALAR ÜZRƏ AŞAĞIDAKI YERLƏRİ TUTMAQ ÜÇÜN MÜSABİQƏ ELAN EDİR

### Kafedraların professorları (elmlər doktorları):

- I cərrahi xəstəliklər kafedrası -2 yer
- Ümumi cərrahiyyə və anesteziologiya kafedrası -1 yer
- İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrası -1 yer
- II uşaq xəstəlikləri kafedrası -1 yer

### Kafedraların dosentləri (fəlsəfə doktorları):

- I mamalıq və ginekologiya kafedrası -1 yer
- Nevrologiya və tibbi genetika kafedrası -1 yer
- Nevrologiya və tibbi genetika kafedrası -2 yer (0,5 vahid)
- III cərrahi xəstəliklər kafedrası -2 yer
- İnsan anatomiyası kafedrası -1 yer
- Terapevtik və pediatrik propedevtika kafedrası -1 yer
- Klinik farmakologiya kafedrası -1 yer
- Məhkəmə təbabəti kafedrası -1 yer
- I cərrahi xəstəliklər kafedrası -1 yer (0,25 vahid)
- I cərrahi xəstəliklər kafedrası -1 yer
- Şüa diaqnostikası və terapiyası kafedrası -1 yer
- Normal fiziologiya kafedrası -1 yer
- Normal fiziologiya kafedrası -1 yer (0,5 vahid)
- Əmək gigiyenası və uşaq yeniyetmələrin gigiyenası kafedrası -1 yer
- Yoluxucu xəstəliklər kafedrası -1 yer (0,25 vahid)
- İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrası -1 yer
- Terapevtik stomatologiya kafedrası -1 yer
- Uşaq stomatologiyası kafedrası -1 yer
- Əczaçılığın texnologiyası və idarəçiliyi kafedrası -1 yer
- III daxili xəstəliklər kafedrası -1 yer (0,5 vahid)
- Ümumi cərrahlıq və anesteziologiya kafedrası -1 yer (0,5vahid)
- İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrası -1 yer (0,5 vahid)
- Urologiya kafedrası -1 yer (0,5 vahid)
- Farmakologiya kafedrası -1 yer

### Kafedraların assistentləri:

- Oftalmologiya kafedrası -1 yer (0,5 vahid)
- Məhkəmə təbabəti kafedrası -1 yer (0,5 vahid)
- Məhkəmə təbabəti kafedrası -1 yer
- Terapevtik və pediatrik propedevtika kafedrası -1 yer (0,75 vahid)
- Nevrologiya və tibbi genetika kafedrası -3 yer (0,5 vahid)
- İnsan anatomiyası kafedrası -2 yer
- Klinik farmakologiya kafedrası -1 yer
- I uşaq xəstəlikləri kafedrası -1 yer (0,5 vahid)
- II uşaq xəstəlikləri kafedrası -1 yer (0,25 vahid)
- Bioloji kimya kafedrası -1 yer
- Yoluxucu xəstəliklər kafedrası -1 yer (0,5 vahid)
- Qulaq, burun, boğaz xəstəlikləri kafedrası -2 yer (0,5 vahid)
- Uşaq stomatologiyası kafedrası -1 yer (0,75 vahid)
- İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrası -1 yer (0,5 vahid)
- II uşaq xəstəlikləri kafedrası -1 yer (0,25 vahid)
- Əmək və uşaq-yeniyetmələr gigiyenası kafedrası -1 yer
- Normal fiziologiya kafedrası -1 yer
- Patoloji anatomiya kafedrası -2 yer
- Histologiya, embriologiya və sitologiya kafedrası-1 yer

### Kafedraların baş müəllimləri:

- İnsan anatomiyası kafedrası -1 yer
- Tibbi fizika və informatika kafedrası -1 yer
- Patoloji anatomiya kafedrası -1 yer
- Farmakologiya kafedrası -1 yer
- HTF-nin Hərbi cərrahiyyə kafedrası -1 yer

### Kafedranın müəllimi:

- İctimai fənlər kafedrası -1 yer

### Elmi Tədqiqat Mərkəzi:

- «Toksikologiya» şöbəsi (Şöbə müdiri) -1 yer
- Bioloji kimya kafedrası üzrə elmi-tədqiqat laboratoriyası (baş elmi işçi) -1 yer (0,5 vahid)

**-Müsabiqədə iştirak etmək üçün sənədlərin təqdim olunma müddəti elan qazetdə («Təbib» qəzeti, 30 sentyabr 2016-cı il) dərc olunduğu gündən 30 gün keçənədəkdir. Sənədlər rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana təqdim edilməlidir:**
**Bakı şəhəri- Az 1007, Ənvər Qasımzadə, 14:**
**Telefon: (012)597-43-23**

# "BIHE-2016" sərgisi: dünya gözəllik və sağlamlıq sənayesinin ən yaxşi layihələri

◆ **Bakı Ekspo Mərkəzində sentyabrın 19-da öz işinə başlayan 22-ci Azərbaycan Beynəlxalq səhiyyə sərgisi ("BIHE-2016") ,,,, ???? başa çatıb. Tədbirdə dünyanın 20 ölkəsindən 121 şirkət iştirak edib.**

Sərgi dünyada məşhur brendləri nümayiş etdirən iri sahibkarları yenidən bir araya toplayıb. Bu tədbirə olan yüksək maraq "BIHE-2016" sərgisinin mühüm nailiyyətidir. Burada səhiyyə sahəsi üzrə yeni məhsul və xidmətlərin təqdimatı üçün lazımı şərait yaradılıb. Ekspertlər bu tədbirin bir neçə əsas müsbət kateqoriyasını qeyd ediblər. Çoxsaylı ekspozisiyalar çərçivəsində praktiki səhiyyə sahəsi üzrə innovativ məhsulların təşviq edilməsi üçün yaradılan uğurlu imkanlarla yanaşı, sərgi həm də tibbi tex-





nika və avadanlıqlar, dərman preparatlarının istehsalçıları, səhiyyə peşəkarları, eləcə də ölkənin dövlət strukturları və işgüzar dairələrinin nümayəndələrini cəlb edib.

Sərgi ölkə səhiyyəsində əldə edilmiş nailiyyətlərin nümayiş olunduğu məkana çevrilib. Tədbirin xarici qonaq və iştirakçıları jurnalistlərə verdikləri qısa müsahibələrdə "BIHE-2016"nın aktuallığını qeyd ediblər. Bu tədbir səhiyyə sahəsinin peşəkarları arasında ünsiyyəti təmin etməklə yanaşı, səhiyyə sektorunun yeni məhsulları, müalicə metodları və aparıcı texnologiyaların nümayiş etdirilməsi baxımından da ideal məkandır.

Bu il Azərbaycan, Belçika, Çexiya və Tunis şirkətlərinin də daxil olduğu debütantlar sərgi iştirakçılarının 30 faizini təşkil edir. Ümumilikdə isə xarici eksponentlər sərginin ümumi iştirakçılarının 60 faizini təşkil edirlər. Dünyanın nəhəng istehsalçıları ilə tərəfdaşlıq edən tibbi avadanlıqların yerli distribüterləri arasında "Besan", "BTL Industries AZ", "Labservis" və digər müəssisələr var.

"BIHE-2016" sərgisi ilə paralel olaraq daha iki tədbirin - 11-ci Azərbaycan Beynəlxalq stomatologiya sərgisinin ("Stomatology Azerbaijan-2016") və 10-cu Yubiley Azərbaycan beynəlxalq gözəllik və estetik tibb sərgisinin ("Beauty Azerbaijan-2016") keçirilməsi tədbir iştirakçılarının uğurlu qərarı kimi qiymətləndirilə bilər. Beləliklə, hər üç layihənin birləşmiş konseptuallığı tədbirlərə olan marağı artırıb və geniş imkanlar, eləcə də zəngin stendlər sayəsində diqqəti




cəlb edib. Sərgi çərçivəsində təcrübəli eksponentlər gözəl təqdimatlar təşkil edərək müasir dərman preparatları və tibbi avadanlıqların geniş spektrini nümayiş etdirərək ziyarətçilərə gözəllik və sağlamlığın sirlərini açıblar. Ziyarətçilər kosmetik məhsullarla da zəngin olan sərgi stendlərində həyati funksiyalara nəzarət edən unikal aparatlar və farmakoloji avadanlıqların ən yaxşı nümunələri ilə tanış olublar.

Xarici klinika və yerli turizm şirkətləri üçün seminarın keçirilməsi iş adamlarının tibbi turizm sahəsinə artan marağının göstəricisi olub. Bu il sərginin yenilikləri arasında Almaniyadan salon ləvazimatları, Yaponiya və Koreyadan Asiya kosmetikası və bir sıra digər məhsullar yer alır. İlk dəfə "Beauty Azerbaijan-2016" sərgisində Tailandı təmsil edən şirkətlər dekorativ kosmetika və SPA məhsulları ilə iştirak ediblər.

Sərgi Azərbaycan Respublikası Səhiyyə Nazirliyi, Azərbaycan Stomatologiya Assosiasiyası, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu və Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının dəstəyi ilə keçirilib.

## Etibarsız sayılır

I müalicə-profilaktika fakültəsinin VI kurs, $142^a$ qrup tələbəsi Behbudlu İnalə Fikrət qızının adına verilmiş qiymət kitabçası itdiyi üçün etibarsız sayılır.

II müalicə-profilaktika fakültəsinin VI kurs, $370^a$ qrup tələbəsi Fathil Ahmedin adına verilmiş qiymət kitabçası itdiyi üçün etibarsız sayılır.

II müalicə-profilaktika fakültəsinin II kurs, $220^b$ qrup tələbəsi Thamer Al Ali Almhamidin adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

II müalicə-profilaktika fakültəsinin I kurs, $362^b$ qrup tələbəsi Aygen Türkcan Selami oğlunun adına 2015-ci ildə Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidməti tərədindən verilmiş müvəqqəti yaşamaq üçün icazə vəsiqəsi itdiyi üçün etibarsız hesab edilir.

II müalicə-profilaktika fakültəsinin III kurs, $240^b$ qrup tələbəsi Yusifova Afət Həsən qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin V kurs, $105^a$ qrup tələbəsi Əsədli Kamran Rafiq oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

II müalicə-profilaktika fakültəsinin II kurs, $211^b$ qrup tələbəsi İmanova Ayşən Əlisəfa qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin II kurs, $205^b$ qrup tələbəsi Məmmədli Sərvan Saleh oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

II müalicə-profilaktika fakültəsinin V kurs, $304^b$ qrup tələbəsi Həsənova Nəcibə Füzuli qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin V kurs, $101^a$ qrup tələbəsi Qasımova Jalə Elşad qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Əliyev Akif Novruz oğluna 1995-ci ildə Azərbaycan Tibb Universiteti tərəfindən stomatoloq ixtisası üzrə verilmiş internatura vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Ağalarov Orxan Ehtibar oğluna 2008-ci ildə Azərbaycan Tibb Universiteti tərəfindən stomatoloq ixtisası üzrə verilmiş internatura vəsiqəsi itdiyi üçün etibarsız sayılır

Abbasəliyev Şahin Nəbi oğluna 1989-cu ildə Azərbaycan Tibb Universiteti tərəfindən stomatoloq ixtisası üzrə verilmiş internatura vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

## Allah rəhmət eləsin!

"Təbib" qəzetinin kollektivi qəzetin baş redaktoru Eldar İsmayıla əzizi
**Bəxtiyar İsmayılovun**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verir.

I daxili xəstəliklər və reanimatologiya kafedrasının əməkdaşları və "Təbib" qəzetinin kollektivi kafedranın dosenti Nağdəli Zamanova anası
**Səmayə Göyüş qızının**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Histologiya, sitologiya və embriologiya kafedrasının əməkdaşları kafedranın dosenti Yadigar Ağayevə əzizi
**Yavər müəllimin**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Fizoterapiya və idman təbabəti kafedrasının əməkdaşları kafedranın laborantı Xəyalə Həsənovaya və ailə üzvlərinə
**Fariz Əli oğlu Həsənovun**
vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Ailə təbabəti, farmakoqnoziya və botanika kafedralarının əməkdaşları və Mübariz Vəliyev farmakoqnoziya və botanika kafedrasının müdiri, professor Yusif Kərimova qızı
**Dilarə xanımın**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Baş redaktor
ELDAR İSMAYIL

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
*Əlyazmalar geri qaytarılmır.*

Qəzet "Təbib" qəzetinin kompyuter mərkəzində yığılır, səhifələnir, "Bəxtiyar-4" İKŞ-də çap olunur.

ÜNVANIMIZ:
Mərdanov qardaşları - 98c
2-ci mərtəbə,
Tel.: 595-24-97
tabibqazeti@amu.edu.az
tabibqazeti@gmail.com

Lisenziya H - 022633
İndeks -0269
Sayı 3000
Sifariş: 327